# İnkişaf və tərəqqi dövrünün başlanğıcı




*Müasir Azərbaycan tarixinin bir mərhələsi ulu öndər Heydər Əliyevin adı və misilsiz xidmətləri ilə sıx bağlıdır. Ulu öndər yalnız Azərbaycanın deyil, bütün türk dünyasının ən dərin iz buraxan siyasi liderlərindən biri olmuşdur. Ümummilli liderimizin 34 illik rəhbərliyi dövrü Azərbaycan tarixinin ən parlaq dövrü kimi yadda qalmış, müasir Azərbaycanın təməl daşları məhz bu illərdə qoyulmuşdur. Bugünkü müstəqil Azərbaycanın uğurları, hər bir tərəqqisi Heydər Əliyevin uzaqgörən siyasətinin təntənəsidir. Azərbaycan bu gün hərtərəfli və dinamik inkişaf yolundadır, iqtisadi yüksəliş, rifah, xalqın həyatında irəliləyiş hər bir sahədə özünü büruzə verir. Ulu öndər Heydər Əliyev xalqını sonsuz məhəbbətlə sevmiş və xalq da öz liderinə eyni qayğı və sevgini göstərmişdir. Bu qarşılıqlı sevgi və inam onu dünya miqyaslı siyasi lider olaraq ikinci dəfə Azərbaycanın rəhbərliyinə gətirmişdir.*

1993-cü ilin çətin günlərində xalqın təkidli çağırışı ilə hakimiyyətə qayıdan dahi şəxsiyyət Azərbaycanı dağılmaq və parçalanmaq təhlükəsindən xilas etmiş, milləti bəlalardan qoruyaraq vətəndaş qarşıdurmasına son qoymuşdur. O, milli qurtuluşun memarı, ictimai-siyasi sabitliyin təminatçısı kimi xalqın birliyini və dövlətçiliyimizin təməlini möhkəmləndirmişdir.

Əfsuslar olsun ki, yenicə müstəqilliyini əldə etmiş Azərbaycan dövlətinin gələcək taleyi səriştəsiz "şəxsiyyət"lərin əlində oyuncağa çevrilmişdi. Ölkənin dörd bir yanında xaos və anarxiya baş qaldırmış, qanunsuz silahlı dəstələr dinc əhaliyə qənim kəsilmişdir. Erməni qəsbkarları ilə mübarizədə acizlik nümayiş etdirilmiş, vahid idarəetmə sistemi olmadığından torpaqlarımız işğal altına düşmüşdü. Hakimiyyət uğrunda gedən mübarizələr dövlətçiliyimizi yox olmaq təhlükəsi ilə üz-üzə qoydu. 1993-cü ilin çətin, gərgin günlərində Azərbaycanın üzləşdiyi təhlükələr ölkənin gələcəyini qaranlığa sürükləyirdi: qiyamçı Surət Hüseynovun silahlı dəstələri döyüş bölgəsini tərk edərək Bakıya doğru irəliləyir və hakimiyyəti ələ keçirmək niyyətində idi. Cənubda separatçılar artıq bir neçə rayonu zorla nəzarətə götürmüşdü, AXC hakimiyyətini tanımaqdan boyun qaçırdılar. Şimalda isə milli azlıqlar arasında hakimiyyətə qarşı üsyan çağırışları dolaşırdı. Azərbaycanın hər yerində gərginlik hökm sürür, qanunsuz silahlı dəstələr ölkənin dövlətçiliyinə və ərazi bütövlüyünə təhlükə yaradırdı.

Xaosun dərinləşdiyi və ümidlərin tükəndiyi bir vaxtda xalqın tək pənah yeri Heydər Əliyev oldu. 15 iyun 1993-cü ildə Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bu tarix xalqımızın xilası kimi yadda qaldı. Onun gəlişi ilə xalq rahat nəfəs aldı, çünki hamı bilirdi ki, o, ölkəni böhrandan çıxara biləcək yeganə liderdir. Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə - istər 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçiləndən, istərsə də müstəqil Azərbaycan Respublikasının Prezidenti olandan sonra öz xalqının keşiyində idi. Ulu öndər Heydər Əliyev tarixin yetirdiyi təkrarolunmaz dahi şəxsiyyət idi. Hər zaman azərbaycanlı olmağı ilə fəxr edən bu böyük lider, hər çıxışında xalqına olan dərin məhəbbətini qürurla ifadə edirdi.

Ümummilli liderimiz problemlərin həlli üçün vətəndaş həmrəyliyini və sabitliyi ən vacib şərt kimi görür, ölkədəki bütün gücləri bu hədəf ətrafında birləşdirməyi zəruri sayırdı. Məhz onun 1993-cü il iyunun 18-də respublika televiziyası ilə xalqa müraciəti zamanı səsləndirdiyi fikirlər deyilənlərə əyani sübutdur. Dahi şəxsiyyət daim Azərbaycan xalqını birliyə və bərabərliyə səsləyirdi. Hətta ən qanlı, davalı günlərdə belə xalqın mənafeyi naminə çalışırdı: "Ona görə də bu gün bu məsələləri sizə çatdıraraq, eyni zamanda bütün Azərbaycan xalqına, bacı-qardaşlarımıza, vətəndaşlarımıza müraciət edirəm ki, bu ağır günlərdə hamımız bir olaq, bərabər olaq, hamımız səbirli, təmkinli olaq və bu ağır vəziyyətdən çıxış yollarını birlikdə axtaraq. Elə edək ki, bir qanlı hadisənin arxasınca ikinci bir qanlı hadisə baş verməsin". Onun liderliyi ilə Azərbaycan sabitlik, inkişaf və birliyə doğru addımladı.

***1993-cü il oktyabrın 10-da Prezident Heydər Əliyevin andiçmə mərasimi keçirilib***

1993-cü il oktyabrın 3-ü Azərbaycan xalqı üçün taleyüklü bir gün oldu. Həmin tarixdə keçirilən prezident seçkiləri müstəqil Azərbaycan dövlətinin qurtuluşa doğru ilk böyük addımı idi. Xalq öz seçimində qətiyyətli oldu və ulu öndər Heydər Əliyevi böyük səs çoxluğu ilə Prezident seçdi. Bu seçimlə müasir, güclü Azərbaycanın təməli qoyuldu. Xalqın böyük əksəriyyətinin dəstəyini qazanan Heydər Əliyevin 1993-cü il oktyabrın 10-da Respublika Sarayında (indiki Heydər Əliyev Sarayı) andiçmə mərasimi keçirildi. Ulu öndər andiçmə mərasimi zamanı bildirmişdir: *"Azərbaycan xalqı öz tarixinin ən mürəkkəb, faciəli dövrünü yaşayır. Məhz bu dövrdə mənim üzərimə qoyulan bu vəzifənin məsuliyyətini dərindən dərk edirəm və əmin etmək istəyirəm ki, bütün fəaliyyətimi, bütün həyatımı bu etibarı doğrultmaq, xalqın ümidlərini doğrultmaq işinə həsr edəcəyəm. Belə bir yüksək və məsuliyyətli vəzifəni üzərimə götürərkən, birinci növbədə Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram".* Azərbaycanı ağır bəlalardan, parçalanma təhlükəsindən xilas edərək, ölkəni sabitlik, iqtisadi inkişaf və tərəqqi yoluna çıxaran ümummilli lider böyük enerji-kommunikasiya layihələrini gerçəkləşdirərək Vətənə sədaqətli xidmətin canlı nümunəsini yaratdı.

Azərbaycan qısa bir zamanda inkişaf və tərəqqi yoluna qədəm qoyaraq həyatın bütün sahələrində böyük nailiyyətlər əldə etdi. Təhsil, səhiyyə, mədəniyyət, kənd təsərrüfatı və sənaye sahələrində irəliləyiş baş verdi. Eyni zamanda erməni işğalçı qüvvələrinin azğınlıqlarının qarşısı alındı, qəddar düşmənə əks zərbələr endirildi. Nəticədə, 1994-cü ilin mayında Ermənistan-Azərbaycan münaqişəsinin həllində ilk mərhələ kimi cəbhə xəttində atəşkəs elan edildi.

1995-ci ilin noyabrında keçirilən referendumla Azərbaycanın ümumbəşəri demokratik dəyərlərini əks etdirən Konstitusiyası qəbul edildi. Bu çoxpartiyalılıq əsasında demokratik parlament seçkilərinin keçirilməsi, Konstitusiya Məhkəməsinin fəaliyyətə başlaması, ölüm cəzasının ləğv olunması və bələdiyyə seçkiləri haqqında qanunların qəbulunu təmin etdi. Heydər Əliyevin rəhbərliyi ilə müstəqil bir dövlət olaraq Azərbaycanın beynəlxalq aləmdə tanınması, siyasi və mədəni əlaqələrin qurulması reallaşdı.

Bu gün hər bir azərbaycanlı bu dövlətin bir parçası olaraq Heydər Əliyev ilə fəxr edir. Çünki onun dühası, siyasəti və məntiqi olmadan müstəqil Azərbaycan olmazdı. Heydər Əliyev bu millətə ikinci nəfəs, ikinci həyat bəxş etmişdir. O, Azərbaycanın irəliləməsi üçün yeni bir yol açmışdır. Dünənə nəzər saldıqda, bu gün sahib olduğumuz cəsarətin, ümummilli liderimizin o zaman bizə verdiyi ruhun nəticəsi olduğu daha aydın görünür. Ulu öndər hər bir işini zərgər dəqiqliyi ilə, xalqının gələcəyi üçün hesablayaraq həyata keçirmişdir. Onun Azərbaycanın inkişafı üçün xidmətləri hələ uzun müddət bu xalqın yoluna işıq saçacaq.

Ulu öndər Heydər Əliyevin dediyi, "Azərbaycan dünyaya Günəş kimi doğacaq" kəlamı özünü sübut etdi. Azərbaycan Respublikası Cənubi Qafqazın lider dövlətinə çevrildi və dünya xəritəsində layiqli yerini qazandı. Bu möhtəşəm uğurun əsas səbəbi, XX-XXI əsrin görkəmli siyasi lideri, təkcə Azərbaycanın deyil, bütövlükdə regionun və dünya ictimaiyyətinin inkişafına töhfə verən Heydər Əliyevin həyata keçirdiyi islahatlar idi. Ulu öndər Azərbaycanı beynəlxalq arenada tanıtdı, iqtisadiyyatımızın möhkəm təməlini qurdu, hərbi gücümüzün bünövrəsini qoydu və ölkəmizi qlobal miqyasda önəmli bir gücə çevirdi. Bu, Heydər Əliyevin uzaqgörən siyasətinin əyani nəticəsidir.

**Nurlan ABDALOV,**
**"Respublika".**